28 MAY- RESPUBLİKA GÜNÜDÜR!

# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №10 (7344) | 27 may 2014-cü il | çərşənbə axşamı | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91 İLLİYİ ŞƏHƏRİMİZDƏ YÜKSƏK SƏVİYYƏDƏ QEYD OLUNDU

**Xalqımızın ümummilli lideri Heydər Əliyev öz xalqı və millətі qarşısında titanik fəaliyyət göstərən dahi şəxsiyyətlərdəndir. Ulu öndər fəaliyyətinin hər bir anında xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin manafeyinə xidmət etmişdir.**

Dahi şəxsiyyət Azərbaycan torpağının və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmışdır. Müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün əlindən gələni əsirgəməmişdir.

Bu böyük həqiqətdir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan bir dövlət kimi zamanın sərt sınaqlarından uğurla çıxıb. Məhz Heydər Əliyev dühası, Heydər Əliyev zəkası hesabına Azərbaycan dünya dövlətləri birliyində öz layiqli yerini tutub. Ölkəmizin müstəqilliyinə nail olunmaqla xalqımızın xoşbəxt gələcəyi üçün bütün təsisatlar yaradılıb. Qanunun aliliyinə, insan hüquq azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşdırılıb.

Özünün mənalı və şərəfli ömrünü Azərbaycan dövlətinə, xalqına xidmətə həsr etmiş ulu öndər Heydər Əliyev xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Müstəqil Azərbaycan Respublikasının bu gününün və sabahının inkişafını təmin edən Heydər Əliyevin 91 illiyi qədirbilən xalqımız tərəfindən layiqincə qeyd olundu.

May ayının 10-da ümummilli lider, müstəqil Azərbaycanın memarı, qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 91 illiyi şəhərimizdə də yüksək səviyyədə qeyd olundu.




Onu da qeyd edək ki, Şirvan şəhərində də bu əziz günə ciddi hazırlıq işləri görülmüşdü.

«Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünün şəhərimizdə geniş, yüksək səviyyədə qeyd edilməsi barədə» Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalovun müvafiq sərəncamı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq şəhərin mərkəzi meydanında-Heydər Əliyev meydanında xeyli abadlıq, quruculuq işləri görülmüşdür. Meydanda, Heydər Əliyev adına prospektdə, parkda yaşıllaşdırma, təmizlik,abadlıq işləri aparılmışdı. İdarə və müəssisələrdə, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında ulu öndərin anadan olmasının 91 illiyi münasibətilə silsilə tədbirlər- konfranslar, disputlar, müsabiqələr, idman yarışları keçirilmişdir.

Ümummilli liderin doğum günü ərəfəsində Heydər Əliyev Mərkəzinə axın olmuşdur. Sakinlər, məktəblilər, tələbələr, İdarə-müəssisələrin nümayəndələri, sadə peşə sahibləri əvvəlcə ulu öndərin abidəsini ziyarət etmiş, sonra Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən sənədlərlə yaxından tanış olmuşlar. Gənclərimiz ümumilli liderin doğum günü münasibətilə keçirilən xatirə turnirlərində fəal iştiark etmişlər.

Mayın 10-u. Heydər Əliyev meydanına axın başlayır. Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisə, ayrı-ayrı təşkilatların nümayəndələri, sakinlər, təhsil, səhiyyə, mədəniyyət işçiləri, tələbələr,şagirdlər Heydər Əliyevin abidəsini ziyarət etdilər.

Başçı M.T.Camalov abidə önünə əklil qoydu. Digər iştirakçılar abidə önünə tər çiçəklər düzdülər.

Şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri Heydər Əliyev Mərkəzini ziyarət etdilər, ulu öndərin həyat və fəaliyyətini əks etdirən sənədlərlə yaxından tanış oldular.

Ulu öndər Heydər Əliyevin abidəsinin ziyarəti bütün gün ərzində davam etdi.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**





# BAKIDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ TƏDBİR

**Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91 illiyi münasibətilə tədbir keçirildi.**

Tədbirdə Azərbaycanın regionlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərinin, o cümlədən Şirvan şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları da iştirak etmişlər. Heydər Əliyev Mərkəzi direktorunun birinci müavini Adil Kərimli Mərkəzin fəaliyyəti haqqında geniş məlumat verdi. Qeyd etdi ki, Heydər Əliyev Mərkəzi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və digər sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, Azərbaycan tarixi və mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması və təbliği, eləcə də dünya mədəniyyətinin nümunələrinin Azərbaycanda tanıdılması istiqamətində fəaliyyət göstərir.

Heydər Əliyevin adını daşıyan Mərkəz müasir Azərbaycanın rəmzinə çevrilib. A.Kərimli əlavə edib dedi ki, Heydər Əliyev Mərkəzi artıq minlərlə xarici ölkə vətəndaşının ziyarət etdiyi bir məkana çevrilib.

O da qeyd olunub ki, Heydər Əliyev Mərkəzi Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən bütün Heydər Əliyev Mərkəzləri və muzeylərinin fəaliyyətinə dəstək olub. Mərkəzin əsas hədəf götürdüyü istiqamətlər və keçirdiyi layihələr respublikadakı digər Heydər Əliyev Mərkəzləri və muzeyləri üçün bir mənbə kimi gələcək səmərəli əməkdaşlığa əsas ola bilər.

Sonra çıxış edən digər Heydər Əliyev Mərkəzlərinin rəhbərləri regionlardakı Mərkəzlərin fəaliyyəti haqqında ətraflı məlumat veriblər.

Sonda tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi və burada yaradılan Heydər Əliyev Muzeyi ilə tanış olublar. Tədbirdə Şirvan şəhər Heydər Əliyev Mərkəzinin direktoru Samirə Abışova və elmi işçi Aynur Fərzəliyeva iştirak edib.

**A.Fərzəliyeva,**
**Şirvan şəhər**
**Heydər Əliyev Mərkəzinin**
**böyük elmi işçisi**

## Ümummilli lider Heydər Əliyev-91

# 2 NÖMRƏLİ MƏKTƏBDƏ GÜL BAYRAMI



**Ucaltdı hər yerdə bayrağımızı,**
**Yazdı tarixlərə ad-sanımızı.**
**Tanıtdı dünyada varlığımızı,**
**Ulu bir sərkərdə, ulu bir öndər!**

Azərbaycan naminə,bütöv, müstəqil Azərbaycan və azərbaycançılıq uğrunda var qüvvəsi ilə çalışan, mübarizə aparan və həmişə də qalib gələn ulu öndər, ümummilli lider Heydər Əliyevin 91 yaşını hər bir azərbaycanlı çox böyük təntənə və coşqu ilə qeyd edir. 2 nömrəli tam orta məktəbin şagirdləri də ulu öndərin 91-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirmişlər. Onlardan da biri Gül bayramı idi.

Bayrama bir aya yaxın qızğın hazırlıq işləri getdi. Sanki məktəb yarış meydanı idi. Hər sinif daha yaxşı təmsil olunmaq, çıxış etmək üçün var gücü ilə çalışırdı.

Həmin gün məktəbimiz xüsusi görkəm almışdı. Hər kəs sevinc və fərəh içindədir, bir-birinə gül hədiyyə edir. Çiçək və bitkilərdən, yarpaqlardan hazırlanmış rəngarəng kompazisiyalar görünüşü və ifadəliyi ilə bir-birindən gözəl idi. Gözəlliyin hədsiz imkanları nümayiş etdirilir, hər kəsdə xoş ovqat yaradırdı. Şəhər icra hakimiyyətinin başçısı Mərdan Camalov məktəbin qonağı idi. Mərdan müəllim hazırlanan işlərə bir-bir baxır, ürək sözlərini deyirdi.

Çiçək sevginin, səadətin, məhəbbətin rəmzidir. Ən böyük çiçək çələngi isə 2 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin sinələrində çırpınan, Heydər Əliyev sevgisi ilə döyünən qəlbləri idi. Kollektivimizin qəlbində əkib-becərdiyi çiçəklər həmişə qönçə bağlayacaq, açacaq, ruhumuza ətir saçacaqdır.

Ulu öndərə həsr edilmiş musiqi nömrələri, mahnı və rəqslər bir-birini əvəz edir, iştirakçıları şənləndirirdi.

Bahar təbiətin ən gözəl çağıdır. Deyirlər, «Baharda doğulanlar ən xoşbəxt insanlar olur». Tanrının Heydər Əliyevin bəxtinə yazdığı ən böyük xoşbəxtliklərdən biri də Zərifə xanım Əliyeva ilə ömür-gün yoldaşı olmasında idi. Tədbirdə Zərifə Əliyevaya həsr olunmuş şeirlər deyildi. VIII sinif şagirdi Mədinə Mirzəyevanın oxuduğu «Anam» mahnısı hər kəsi riqqətə gətirdi.

Yaz günündə həyata göz açan ümummilli lider Heydər Əliyevin doğum gününü bahar çiçəkləri ilə anılması, əlbəttə ki, ulu öndərin ruhuna xalqımızın dərin hörmət və ehtiramının nümayişi idi. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev də biz azərbaycanlıların ürəklərində yaşayacaqdır. Biz 2 nömrəli tam orta məktəbin kollektivi hər il ulu öndərin doğum gününü bu günki kimi böyük təntənə ilə qeyd edəcəyik.

Tədbirin sonunda gələn qonaqlara milli mətbəximizin bir nümunəsi olan qızıl güllərdən bişirilmiş gül şirniyyatları hədiyyə edildi.

Daha sonra Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov çıxış etdi, bir çox müəllim və şagirdləri hədiyyələrlə də təbrik etdi.

Gül bayramı məktəbin xor kopellasının çıxışı ilə sona çatdı.

**Sevil Xudiyeva,**
**əməkdar müəllim**

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Şirvan şəhər İcra Hakimiyyəti və Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə Mərkəzi Mədəniyyət evində «Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu» mövzusunda konfrans keçirildi.**

# «ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU»

Konfransda Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, eləcə də şəhərin aktiv gəncləri iştirak etdilər.

Konfransda YAP Şirvan şəhər təşkilatının gənclər birliyinin sədri Emil Məmmədov, Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsinin əməkdaşı Nurlan Qədimov, Şirvan şəhər Heydər Əliyev Mərkəzinin direktoru Samirə Abışova, Şirvan şəhər 18№-li məktəb- liseyin müəllimi Sürəyya İsmayılova, Anadolu Universitetinin tələbəsi, şəhərin fəal gənci Yusif Poladov çıxış edərək ulu öndərimizin keçdiyi həyat yolundan, siyasi fəaliyyətindən, Azərbaycan gəncliyi üçün örnək olacaq vətənpərvərlik tərbiyəsindən danışdılar.

Konfransda çıxış edən Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev də öz növbəsində respublikamızda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan Dövlət Gənclər siyasətinin həyata keçirilməsindən, Prezidentimiz İlham Əliyevin gənclərə göstərdiyi xüsusi münasibətdən, həyata keçirilən Dövlət Proqramlarından danışaraq hər bir gənci ulu öndərimizin bizlər üçün qoyub getdiyi azərbaycançılıq məfkurəsini, vətənpərvərlik məktəbini uğurla davam etdirməyə səslədi.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov da çıxışı zamanı ulu öndərimizin gənclərə aşıladığı vətənpərvərlik tərbiyəsindən, azərbaycançılıq məfkurəsindən, dünya azərbaycanlılarının həmrəyliyindən danışdı. Xüsusilə Heydər Əliyev siyasi kursunun davamı olaraq Prezidentimiz İlham Əliyevin ölkə gənclərinə göstərdiyi xüsusi diqqət və qayğıdan, regionlarda yaradılan şəraitdən, tikilən Olimpiya İdman Kompleksləri və Gənclər Mərkəzlərindən danışdı.

Sonda başçı bütün Azərbaycan gəncliyini, xüsusilə Şirvan gənclərini ulu öndərimizin vətənpərvərlik məktəbini öyrənməyə və hər bir gənci vətənpərvər gənc olaraq xalqına, millətinə layiqli övlad olmağa səslədi. Sonra Şirvan şəhər Heydər Əliyev meydanında Gənclər və İdman Nazirliyi və Azad Azərbaycan Telekanalı tərəfindən birgə hazırlanmış maraqlı konsert keçirildi. Tədbir möhtəşəm atəşfəşanlıqla başa çatdı.

# Böyük ömrün anları...

## (Kollecdə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilən kompozisiyadan qeydlər)

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci müəllim və tələbələrinin birlikdə hazırladıqları «Böyük ömrün anları» adlı tədbir özünün bədii-estetik, elmi-siyasi və ideoloji səviyyəsi ilə fərqlənmiş və heç şübhə etmirik ki, yaddaşlarda uzun müddət qalacaqdır.**




Öncə kollecin müəllim və tələbələri və dəvət olunmuş qonaqlar unudulmaz liderin həyat və fəaliyyətinə həsr edilən foto və rəsm sərgisinə böyük maraqla tamaşa etdilər. Sərgiyə baxışdan sonra tamaşaçılar kollecin akt zalına toplaşdılar.

Tələbə-aparıcılar Azərbaycan xalqının ümummilli lideri, tariximizin ən parlaq, ən böyük şəxsiyyətlərindən biri, dahi Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan tədbiri açıq elan etdilər.

Öncə dövlət himni ifa olundu.

Sonra aparıcılar tələbə-gənclərin hazırladıqları «Böyük ömrün anları» adlı musiqili, ədəbi-bədii kompazisiyanı tamaşaçıların diqqətinə çatdırdılar. Ümummilli liderimiz Heydər Əliyevin keçdiyi və bütün gənclərimizə örnək ola biləcək böyük həyat yolunun əsas anlarından , xalqa bağışlanmış böyük ömrünün əsas anlarından söhbət açdılar.

...Heydər Əliyev hələ uşaqlıqdan qeyri-adi fəallığı və istedadı ilə fərqlənirdi. O, ana dilini sevir, başqa dilləri də öyrənməyə can atırdı. Yorulmadan mütaliə edirdi. Sanki özünü gələcək mübarizələrə hazırlayırdı. Azərbaycan və dünya ədəbiyyatının klassiklərini oxumaqdan zövq alırdı. Mirzə Cəlil və Hüseyn Cavidə qəlbən bağlı idi. Heydər Əliyev musiqini, poeziyanı dərindən öyrənməyə can atırdı.

Yenidən aparıcılar səhnəyə çıxır, bu böyük ömrün əsas anlarından söhbət açırdılar.

...Ana müqəddəs varlıqdır. Ömür yoldaşı isə ailəyə dayaqdır. Şəkillərin birində Heydər Əliyevlə iki qadın dayanmışdır. Onlardan biri anası İzzət xanım, digəri isə ömür-gün yoldaşı Zərifə xanım idi. Hər iki xanım bu böyük dühanın arxası və dayağı olmuşdur.

Tədbirin bu hissəsində «Tut ağacı» və «Sənə də qalmaz» mahnıları ifa edildi.

... 1969-cu ildən 1982-ci ilədək Heydər Əliyev Azərbaycana rəhbərlik etdi. Onun təşkilatçılığı, bacarığı SSRİ rəhbərliyinin də diqqətini cəlb etmişdir. 1982-ci ildən 1987-ci ilə kimi Sov. İKP MK Siyasi Bürosunun üzvi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi vəzifələri yerinə yetirməli oldu. Burada da Heydər Əliyev işgüzarlığı, təşkilatçılığı hamını heyran etdi. Lakin xain xislətli Qorbaçovlar onu vəzifədən uzaqlaşdırmağı bacardılar.

Heydər Əliyev geri çəkilmək fikrində deyildi. O öz doğma xalqı üçün hələ çox işlər görməyi nəzərdə tuturdu. XX yüzilliyin 90-cı illərində o vətənə döndü. İkinci dəfə xalqın təkidi və xahişi ilə Azərbaycan Respublikasına rəhbərlik etdi. Parçalanmaqda olan müstəqil Azərbaycan Respublikasının bütövlüyünü bərpa etdi. Milli Ordunu yaratdı. İqtisadiyyatın bərpası üçün gecəli-gündüzlü çalışdı.

1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» kimi nəhəng neft müqaviləsi bağlandı. Azərbaycanın şöhrəti bütün dünyaya yayıldı.

Bəli, Azərbaycan dövləti artıq müstəqil, hüquqi, demokratik, dünyəvi dövlətlərdəndir. Uğurlarımız isə göz qabağındadır.

... Azadlıq, müstəqillik böyük nemətdir.

Bu gün biz fəxrlə deyirik ki, Azərbaycan müstəqil və azaddır. Məhz buna görə qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna- Heydər Əliyevə minnətdardır. Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş dahi şəxsiyyətdir. O, yeni Azərbaycanın qurucusudur. Öz yurdunun, doğma torpağının təəssübkeşidir. Bütün ruhu, varlığı ilə xalqına, doğma yurduna bağlı olan bu böyük şəxsiyyət həmişə doğma Azərbaycana xidmət etmişdir. Anadan olmasının 91-ci ildönümü ərəfəsində hər yerdə olduğu kimi, kollecdə də keçirilən bu tədbir ulu öndərə olan böyük məhəbbətin ifadəsi idi. Ulu öndərə məhəbbətin ifadəsi olaraq kollecin müəllimləri, eləcə də tələbələri bu tədbirə böyük məsuliyyətlə yanaşmışdılar. Elə buna görə də tədbir iştirakçıları tədbiri hazırlayanları uzun sürən alqışlarla müşayiət etdilər.

**Rasim XƏLİLOV,**
**Şirvan Dövlət İqtisadiyyat və Humanitar kollecinin tərbiyə işləri üzrə direktor müavini**

# BEYNƏLXALQ TURNİRDƏ 1-Cİ YERİ QAZANDIQ

**Ulu öndərimiz Heydər Əliyevin xalqımız və eləcə də gənclərimiz, idmançılarımız üçün gördüyü işlər də heç vaxt unudulmur. Anadan olmasının 91-ci ildönümü ərəfəsində ümummilli liderin xatirəsinə həsr olunmuş bir sıra mötəbər yarışlar, çempionatlar və turnirlər təşkil olunub. Bu tədbirlərin davam olaraq üzgüçülük üzrə beynəlxalq turnir Şirvan şəhərində təşkil olundu.**

Turnirin açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndikdən sonra Azərbaycan Respublikası Üzgüçülük Federasiyasının Prezidenti, Milli Məclisin deputatı Xanlar Fətiyev, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, Azərbaycan Respublikası Gənclər və İdman Nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək ulu öndər Heydər Əliyevin həyatı, siyasi fəaliyyəti və eləcə də ölkə idmanının inkişafı istiqamətindəki fəaliyyətindən danışdılar və bugunkü turnirin əhəmiyyətini diqqətə çatdırdılar.

Turnirdə Azərbaycan, Rusiya və Gürcüstandan olan 60 idmançı iştirak etdi. 5 gün davam edən yarışın bağlanış mərasimi 12 may 2014-cü il tarixdə keçirildi.

Mərasimdə çıxış edən Gənclər və İdman nazirliyinin sektor müdiri Nicat Həsənov yarışın yüksək səviyyədə təşkilinə görə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova və şəhər Olimpiya İdman Kompleksinin müdiri İlham Səfərova öz minnətdarlığını bildirdi.

Turnirdə Azərbaycan Respublikası komanda hesabında I yerə, Rusiya Federasiyası II yerə, Gürcüstan Respublikası isə III yerə layiq görüldü.



**Əfqan HƏSƏNOV,**
**şəhər gənclər və idman idarəsinin aparıcı-məsləhətçisi**

# HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ NİKAH MƏRASİMİ

**Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyi daha bir əlamətdar hadisə ilə iki gənc və onun yaxınları üçün yadda qalan oldu.**

Heydər Əliyev Mərkəzində məhz həmin gün şəhər sakinləri İbrahim Bağırov və Zülfiyyə İbadovanın nikah mərasimi keçirildi. Gənclər öncə ulu öndərin abidəsini ziyarət edərək, abidə önünə çiçək qoydular. Daha sonra mərkəzdə təşkil olunmuş mərasimdə gənclərin nikah aktı şəhər qeydiyyat şöbəsinin baş mütəxəssisi Sevinc Həsənovanın iştirakıyla imzalandı. Nikah haqqında şəhadətnaməni bir ömür boyu səadət, xoşbəxtlik və sədaqətlə daşımağı arzulayan Sevinc xanım yeni qurulan ailəyə ən xoş arzularını çatdırdı. Mərkəzin direktoru Samirə Abışova da gənclərə xoşbəxtlik diləyərək, qeyd etdi ki, mərkəzdə keçirilən üçüncü nikah mərasimidir. Ulu öndərin doğum günündə təməli qoyulan bu ailəyə möhkəm sevgi, hörmət və anlayış dilədi. Səbəbkarlar bu anı həyatlarının ən unudulmaz hadisəsi kimi qiymətləndirdilər.

**Y.HÜSEYNOVA**



# 9 MAY QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİM

**Faşist Almaniyası üzərində qələbənin 69-cu ildönümü münasibətilə «Qələbənin 50 illiyi» adına abidə-kompleksi önündə təntənəli mərasim keçirilmişdir. Öncə şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, bir qrup müharibə veteranı Şəhidlər xiyabanını ziyarət etmiş, burada uyuyan Qarabağ müharibəsi şəhidlərinin xatirəsini yad etmişlər.**



Abidə-kompleksi önündə tədbiri Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov açmışdır. Başçı veteranları 9 May Qələbə Günü münasibətilə təbrik etmiş, onlara cansağlığı arzulamışdır.

Şirvan şəhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi, polkovnik-leytenant S.Həsənov «Qələbə-69» mövzusunda məruzə etdi.

O dedi ki, qanlı-qadalı müharibə 1418 gün davam etmişdir. Həmin müharibədə 700 min nəfərə yaxın azərbaycanlı igidliklə vuruşmuşdur. Onların yarıdan çoxu həlak olmuşdur.

Azərbaycanlılar da bu müharibədə qəhrəmanlıqla döyüşmüşlər. Onlardan 130 nəfəri göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, həmyerlimiz Şirin Şükürov da onlardandır. Döyüş xidmətlərinə görə orden və medallarla təltif olunanlar arasında onlarla sakinimiz olub.

Polkovnik-leytenant S.Həsənov sonra demişdir ki, 20 ildən çoxdur müstəqil Azərbaycanın vətəndaşlarıyıq. Azərbaycanın Milli Ordusu yaranıb. Onun bacarıqlı, cəsur zabit və əsgərləri var. Ordu müasir hərbi texnika, sursatla təmin olunmuşdur. Biz sülhsevər xalqıq. Amma müharibəyə də hazırıq. Erməni işğalçıları torpaqlarımızın 20 faizini zəbt edib. 1 milyon nəfərdən çox qaçqın- köçkünümüz var. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev Milli Ordunun güclənməsi istiqamətində ardıcıl tədbirlər görür. Eyni zamanda torpaqlarımızın işğaldan azad olunması üçün məqsədyönlü siyasət yeridir, sülh danışıqları aparır. Erməni işğalçıları sülh danışıqlarına məhəl qoymayıb işğal etdikləri torpaqlarımızdan geri çəkilməsələr müzəffər ordumuz, onun vətənpərvər əsgər və zabitləri öz sözlərini deyəcəklər.

Bu gün Milli Ordu sürətlə inkişaf edir. Əsgər və zabitlərimiz borclarını şərəflə yerinə yetirirlər. Fərəhli haldır ki, orduda namusla xidmət edən əsgər və zabit heyəti arasında şirvanlılar da çoxdur. Onlar düşməni hər an susdurmağa, işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdırlar.

Şirvanlılar nümunəvi xidmət göstərirlər. Hərbi texnikanın sirlərinə kamil yiyələnirlər. Beləlbri barədə hərbi hissə komandirlərindən gələn təşəkkür məktubları qəlbimizi qürur hissi ilə doldurur. Fəxrlə deyə bilərik ki, güclü ordumuz var. Buna isə ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin Milli Orduya, onun şəxsi heyətinə göstərdiyi diqqət və qayğının nəticəsində nail olmuşuq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev II Dünya müharibəsi veteranlarına da diqqət və qayğını əsirgəmir. 9 May Qələbə Günü ərəfəsində müharibə iştirakçılarına, sonradan vəfat etmiş veteranların ailələrinə birdəfəlik maddi yardım göstərilməsi də bu qayğının parlaq təzahürüdür. Şirvan şəhərində başçı M.T.Camalov veteranlara həmişə qayğı göstərmişdir.

S.Həsənov müharibə veteranlarını 9 May Qələbə Günü münasibətilə təbrik etdi, onlara cansağlığı arzuladı.

Şirvan şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası sədrinin müavini Vəli Ələkbərov çıxışında ölkə Prezidenti və şəhər icra hakimiyyəti başçısı tərəfindən onlara göstərilən qayğıya görə minnətdarlığını bildirdi.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyi şəhər şöbəsinin sədri Pənah Xankişiyev də çıxışında II Dünya müharibəsi iştirakçılarını 9 May münasibətilə təbrik etdi, Qarabağ torpağının da erməni faşistlərindən azad ediləcəyi günün uzaqda olmadığını söylədi.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov tədbiri yekunlaşdırdı.

Başçı abidə önünə əklil, tədbir iştirakçıları gül-çiçəklər düzdülər.

Başçı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri el qəbiristanlığında uyuyan həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun qəbrini ziyarət etmiş, qəbir üstünə çiçəklər düzmüşlər.

9 May Qələbə Gününə həsr olunmuş mərasim bayram süfrəsi ilə yekunlaşmışdır. Əmək və müharibə veteranı Vəli Ələkbərov onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə, şəhər icra hakimiyyətinə razılığını bildirdi. Mərkəzi Mədəniyyət evinin instrumental ansamblı maraqlı konsert proqramı ilə veteranları şənləndirmişdir. Qeyd edək ki, mayın 9-da İsmət Qayıbov adına Kürsahili parkda həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun abidəsi önündə tədbir keçirilmişdir.

Şəhər sakinləri, məktəblilər qəhrəmanın abidəsini ziyarət etmişlər.Abidə önünə tər-çiçəklər düzülmüşdür. Ş.Şükürovun həyat və fəaliyyətindəki döyüş yolundan söz açılmış, şagirdlər Vətənə, qəhrəmanlığa aid şeirlər söyləmişlər.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# 28 MAY-İSTİQLAL GÜNÜDÜR!



**Azərbaycan xalqı öz dövlət müstəqilliyini XX əsrin əvvəllərində əldə etmişdir. Çarizm zülmündən qurtulan xalqımız 1918-ci il mayın 28-də özünün ilk demokratik dövlətini-Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Milli Şura Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında «İstiqlal Bəyannaməsi»ni qəbul etdi. «İstiqlal Bəyannaməsi»ndə deyilirdi ki, tam hüquqlu, müstəqil dövlət olan Azərbaycanda ali hakimiyyət xalqa məxsusdur.**

1918-ci il may ayının 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi o zamankı dünyamızın əsas siyasi mərkəzlərinə-İstanbul, Berlin, Vyana, Paris,-London, Madrid, Haaqa,Moskva, Stokholm, Kiyev,Xristianiya (indiki Oslo), Kopenhagen və Tokioya radioteleqrafla bəyan edildi. Burada qeyd olunurdu ki, Azərbaycan Milli Şurası şərqdə özünün ilk demokratik cümhuriyyətini yaratmışdır. Azərbaycanın şimal hissəsində milli dövlətn bərpa edildiyi, burada islam və türk dünyasında ilk demokratik idarə üsulunun bərqərar olunduğu və Azərbaycan türklərinin də müqəddəratını özlərinin təyin etmək istəkləri dünyaya bildirildi.

Azərbaycan Demokratik Respublikasının azad həyatının ömrü uzun olmadı. 23 aylıq fəaliyyətinə baxmayaraq qısa müddətdə respublika xeyli işlər gördü. Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan dili dövlət dili elan edildi. İyunun 26-da Milli Ordu yaradıldı. Avqustun 23-də «Azərbaycan Vətəndaşlığı haqqında» fərman imzalandı. 1918-ci il noyabrın 20-də «Azərbaycan parlamentinin yaradılması haqqında» qanun qəbul edildi. Respublika ərazisində yaşayan bütün xalqların və hər iki cinsin bərabər seçki hüququ qanunla təsbit olundu. Bununla da Azərbaycan Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə oldu.

1919-cu il sentyabrın 1-də «Bakı Dövlət Universitetinin açılması haqqında» Azərbaycan Demokratik Respublikasının verdiyi qanun mədəni quruculuq sahəsində həyata keçirilən ən böyük addımlardan biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar- M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, F.Xoyski, H.Ağayev və başqaları xalqımıza müstəqillik ənənəsi qoyub getdilər.

«Şimal küləyi» əsrlər boyu azad yaşamaq istəyən Azərbaycan xalqının istiqlal arzusunun həyata keçməsinə yol vermədi. Rusiyanın 72 minlik XI Qırmızı ordusunun zirehli qatarlar qrupu 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Azərbaycan sərhəddini adlayıb sürətlə Bakı üzərinə hərəkət etməyə başladı. Azərbaycan ordusuun kiçik dəstələri XI Qırmızı Ordunun hücumunun qarşısını ala bilmədi. Nəticədə Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycan yenidən Rusiya tərəfindən işğal edildi.

Ötən əsrin 80-ci illərinin sonundan xalqımızın imperiya əsarətinə qarşı çıxışları yenidən gücləndi. Müstəmləkə siyasətinə qarşı olan bu çıxışlar xalqımızın milli azadlıq mübarizəsi tarixində öz yeri olan ən böyük hadisədir. Xalqımız 73 ildən sonra, 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdi. Sovet imperiyasının xarabalığı üstündə müstəqil Azərbaycan Respublikası yaradıldı. Azərbaycan Parlamenti «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı»nı qəbul etməklə 1918-ci il istiqlaliyyətini yenidən bərpa etdi. Dünya dövlətlərinin demək olar ki, hamısı Azərbaycan Respublikasını müstəqil bir dövlət kimi tanıdı. 1918-və 1991-ci illərdə respublikamızın müstəqilliyini tanıyan ilk dövlət dini bir, dili bir olan qonşu qardaş Türkiyə Respublikası olmuşdur.

Azərbaycanda hakimiyyətdə olanların səriştəsizliyi və bacarıqsızlıqları müstəqilliyimizi təhlükə qarşısında qoydu. Ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Hakimiyyət uğrunda gedən mübarizə torpaqlarımızın hissə-hissə işğalı ilə nəticələndi. Ölkəni belə vəziyyətdən çıxarmaq üçün xalqın tələbi və təkidi ilə xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana dəvət olundu. Onun səyi ilə az vaxtda respublikada vəziyyət normallaşdı. Xaos və anarxiyaya son qoyuldu.

Ümummilli liderimiz H.Əliyevin rəhbərliyi ilə respublikamızın yeni Konstitusiyası qəbul edildi. İqtisadiyyatın hərtərəfli inkişafı üçün tədbirlər görüldü. 1994-cü il sentyabrın 20-də imzalanmış «Əsrin müqaviləsi» müstəqilliyimizin ilk bəhrələrindəndir. Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərləri işə salındı. Respublikamız sürətlə inkişaf etməyə başladı.

2003, 2008 və 2013-cü illərdə keçirilən prezident seçkilərində Heydər Əliyev kursunun layiqli davamçısı, bacarıqlı siyasətçi İlham Əliyev qalib gəldi və dövlət müstəqilliyinin qorunması üçün iri addımlar atdı. Ölkədə geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilməyə başlandı.Prezidentin uğurlu daxili və xarici siyasəti nəticəsində respublikamızın dövlət müstəqilliyinin əbədiliyi təmin olunmuşdur. Bu gün tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan xalqı bundan sonra da müstəqillik yolu ilə gedəcək, öz müstəqilliyini əldən verməyəcək, Azərbaycan Respublikası müstəqil bir dövlət kimi daim yaşayacaqdır.

Azərbaycan Demokratik Respublikasının yaranmasının 96-cı və müstəqilliyimizin bərpasının 23-cü ildönümü münasibətilə bütün Azərbaycan xalqını təbrik edir, xalqımıza xoşbəxt gələcək arzulayıram.



**Xalid SƏLİMOV,**
**Şirvan şəhər N.Quliyev adına 9 nömrəli tam orta məktəbin tarix müəllimi**

# TOLERANTLIĞA DAİR NÖVBƏTİ KONFRANS

**Daxili İşlər Nazirliyinin (DİN) təşəbbüsü ilə «Tolerantlıq Azərbaycan cəmiyyətinin yaşam normasıdır» mövzusunda növbəti konfrans Şirvan şəhərində keçirilmişdir.**

Nazirliyin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov tədbiri giriş sözü ilə açaraq Azərbaycanda bütün dinlərə və digər millətlərə tarixən tolerant münasibət bəsləndiyini demişdir. O, dini ayrı-seçkilik və ədavət salınmasının, dözümsüzlük ideyalarının yayılmasının yolverilməzliyi, belə halların qarşısının alınması məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən görülən işlərdən və bu sahənin daim diqqət mərkəzində saxlanılmasından danışmışdır.

Şirvan şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Şahin Mirzəyev çıxışında şəhərdə radikalizmi, dözümsüzlüyü və bölücülüyü təbliğ edən zərərli meyllərə qarşı aparılan mübarizə tədbirləri barədə məlumat vermişdir. Şirvan şəhər İcra Hakimiyyəti başçısının I müavini Samid Abıyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbə müdiri Tural Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin Şirvan bölgəsi üzrə dini icmasının sədri Əvəz Mehrəliyev, Ağsaqqallar Şurasının sədri Fəxrəddin Rəhimov dini, mənəvi-əxlaqi dəyərlərin qorunması sahəsində görülən işlərdən söhbət açmışlar.

# SƏRGİ KEÇİRİLDİ

**Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyilə əlaqədar Şirvan şəhər Dövlət Rəsm Qalereyasında sərgi keçirildi. Rəsm dərnəyinin 14 üzvünün 50-dən çox əsəri sənətsevərlərə təqdim olundu.**

Sərginin rəsmi hissəsində «Dahilik zirvəsi» mövzusunda mühazirəni qalereyanın əməkdaşı Günay Həsənova təqdim etdi.

Qalereyanın direktoru Ziyafət Hüseynov çıxış edərək sərginin əhəmiyyətindən söhbət açdı. Və qeyd etdi ki, səyyar sərgi Şirvan şəhər özəl türk liseyində də təşkil olunub. Sonda «Qızılgül» uşaq bağçası fidanlarının ifasında bədii kompozisiya dinlənildi.

**Yaqut VAFİQQIZI**




# Əfqanıstan müharibəsi veteranları təltif olunmuşlar

**YAP Şirvan şəhər təşkilatının iclas zalında Əfqanıstanda döyüş əməliyyatlarının bitməsinin 25 illiyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbiri giriş sözü ilə Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Elman Abbasov açdı.

Əfqanıstan müharibəsində həlak olanların və müharibədən sonra vəfat edənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Böyük döyüş təcrübəsinə malik olan Əfqanıstan veteranları Azərbaycanın Milli Ordusunda Qarabağ uğrunda gedən döyüşlərdə də fədakarlıq göstərmişlər. Onlar torpaqlarımızın azad olunması uğrunda erməni işğalçılarına qarşı ilk xüsusi təyinatlı döyüş batalyonu təşkil edərək qəhrəmanlıqla vuruşmuşlar.

Əfqanıstan döyüşçülərindən 7 nəfər Azərbaycan Milli Qəhrəmanı adına layiq görülmüş, 37 nəfər



"Azərbaycan Bayrağı» ordeni və digər döyüş medalları ilə təltif olunmuşdur.

Tədbirdə Şirvan şəhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsinin rəisi polkovnik-leytenant Sacəddin Həsənov məruzə etdi.

Natiq 1979-cu il dekabr ayının 25-də 1989-cu ilin fevral ayının 15-ə qədər Sovet ittifaqının 40-cı ordusunun Əfqanıstan ərazisində olduğu müddətdə beynəlmiləlçilik missiyasını yerinə yetirdiyini, 416 iri miqyaslı hərbi əməliyyatlar keçirdiyini, bu əməliyyatlarda SSRİ-nin tərkibində olan müttəfiq respublikalardan 68 millətin nümayəndəsindən təşkil olunmuş 620 min nəfər hərbiçinin iştirak etdiyini bildirdi.

Əfqanıstan müharibəsində digər millətlərlə yanaşı 7500 nəfər azərbaycanlı da iştirak etmişdir. Onlardan 208 nəfəri hərbi əməliyyatlarda həlak olmuş, 450 nəfəri əlil, 7 nəfər itgin düşmüşdür. Həmin döyüşlərdə Şirvan şəhərindən də 71 nəfər iştirak etmişdir.

Tədbirdə çıxış edən natiqlər ümummilli lider Heydər Əliyevin Əfqanıstan müharibəsi veteranlarına diqqət və qayğısından, bu qayğının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də davam etdirildiyini böyük minnətdarlıq hissi ilə vurğuladılar. Bu qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürlərini bildirdilər.

Sonda Əfqanıstan müharibəsinin iştirakçısı olmuş, 60 nəfər veterana Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimovun əmri ilə "Əfqanıstanda döyüş əməliyyatlarının bitməsinin 25 illiyi" xatirə medalı təqdim olundu.

Xatirə şəkili çəkildi.

# YUBİLEYƏ HƏSR OLUNMUŞ KONFRANS

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə stansiya rəhbərliyi və ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə tədbir keçirdik.Öncə ümummilli liderin stansiyanın həyətindəki abidəsi önünə gül dəstələri qoyuldu, xatirəsi ehtiramla yad edildi.**

Sonra «Ulu öndər Heydər Əliyev Azərbaycanda müstəqil enerji sisteminin yaradıcısıdır» mövzusunda konfrans keçirildi. Yeni Azərbaycan Partiyası Ərazi ilk təşkilatının sədri Mehman Cavadov tədbiri açdı.

Şirvan İES MMC-nin direktoru Fəzail Süleymanov məruzə edərək ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan üçün misilsiz dərəcədə əhəmiyyət kəsb edən xidmətlərindən söz açdı. Dahi lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin həyat və yaradıcılığından, onun siyasi və dövlətçilik irsindən, Azərbaycan Respublikasının enerji sistemində gördüyü böyük işlərdən danışdı. Xüsusi qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanda müstəqil enerji sisteminin yaradıcısıdır.

Sonra məruzə ətrafında geniş və əhatəli çıxışlar başlandı.

Stansiya Qadınlar Şurasının sədri Dilarə Əliyeva çıxışında qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev qadınlara həmişə xüsusi diqqət göstərmiş, onların yüksək vəzifələrə təyin olunması, qayğı və diqqətin artırılması üçün əlindən gələni etmişdir. Ailə, qadın və uşaq məsələləri dövlət səviyyəsinə qaldırılmışdır. Ölkənin iqtisadi, siyasi, sosial və mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə 1998--ci ildə öz fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaratmışdır.

İqtisadiyyat şöbəsinin rəisi Gülməmməd Rzayev çıxış edərək qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycan xalqı və dövlətinin inkişafı üçün nə mümkünsə edərək Azərbaycanın müstəqilliyini əbədiliyə və dönməzliyə çevirdi.

Texniki İstehsalat şöbəsinin mühəndisi Rəna Rəşidova ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıtdığı mürəkkəb və ziddiyyətli dövrü xarakterizə edərək qeyd etdi ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmağı, xalqın səsinə səs verməsi, Azərbaycan xalqının və dövlətinin xoşbəxt gələcəyinin başlanğıcı idi.

Yığıncaqda iştirak edən «Azərenerji» ASC-nin dispetçeri S. Tağıyev çıxış edərək ulu öndərin Azərbaycan enerji sisteminin inkişafındakı xidmətlərindən və bu sistemin hazırki nailiyyətlərindən danışdı.

Tədbirdə iştirak edən Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Elman Abbasov çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycanı müstəqil bir dövlət kimi formalaşdırdığını, dünyaya tanıtdığını və bütün aparıcı sahələri dinamik inkişaf yoluna çıxartdığını qeyd etdi.

Məruzə ətrafında digər çıxış edənlər ulu öndər Heydər Əliyevin Vətən,-xalq qarşısındakı misilsiz xidmətlərindən və uzaqgörən siyasətindən danışaraq onun quruculuq ənənələrinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğuladılar.

**G.RZAYEV,**
**Şirvan İES MMC İqtisadiyyat şöbəsinin rəisi**

# «PİYADALAR, DİQQƏTLİ OLUN!»

**Respublika ərazisində bu ad altında hərəkətin təhlükəsizliyi həftəsi keçirildi.**

Məlum olduğu kimi yaz mövsümünün başlanması ilə əlaqədar küçə və yollarımızda piyadaların hərəkət intensivliyi artmışdır. Hərəkətin ən müdafiəsiz iştirakçıları olan piyadaların, xüsusilə uşaq və yeniyetmələrin təhlükəsizliyinin təmin edilməsi, onların yol hərəkəti ilə bağlı həyat və sağlamlığının qorunması vacib məsələ kimi qarşıda durur.Daxili İşlər Nazirliyinin və yerlərdəki müvafiq qurumların bu sahəyə xüsusi yetirmələri nəticəsində respublikada nəqliyyat vasitələrinin sayının ilbəil sürətlə artması fonunda yol-nəqliyyat hadisələri stabil qalmışdır. Buna baxmayaraq cari ilin əvvəlindən respublika ərazisində piyadaların vurulması ilə bağlı baş vermiş hadisələrdə həlak olanların və xəsarət alanların olması ciddi narahatlıq doğurur.

Bu səbəbdən piyadaların ölümü ilə nəticələnən ağır yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətdə profilaktiki tədbirlərin gücləndirilməsi, habelə hərəkət iştirakçılarına, xüsusilə azyaşlı uşaqlara təhlükəsiz davranış vərdişlərinin aşılanması və təbliğatının effektivliyinin yüksəldilməsi məqsədi ilə DİN mayın 5-də 11-dək respublika ərazisində «Piyadalar, diqqətli olun!» adı altında hərəkətin təhlükəsizliyi həftəliyi keçirdi.

Şəhərimizdə də bu məqsədlə lazımi tədbirlər görüldü.

Həftəliklə əlaqədar təhsil müəssisələrinin, işçilərinin sayı çox olan iri müəssisələrinin və təşkilatların yerləşdiyi ərazilərdə, respublika əhəmiyyətli avtomobil yollarının keçidiyi yaşayış məntəqələrində yol şəraiti müayinə olundu. Piyadalar üçün təhlükəsiz hərəkət təşkil edilməklə yeni yol nişanları qoyuldu, yararsızlar təzələndi, küçələrdə nişanlanma xətləri çəkildi.

Şəhərimizin asfalt yollarındakı küçələrdə piyada keçidləri yenidən rəngləndi. Heydər Əliyev, M.Ə.Rəsulzadə prospektlərində əlavə yol nişanları qoyuldu. Məktəblərdə, uşaq bağçalarımızda profilaktiki tədbirlər keçirdik, maarifləndirici söhbətlər apardıq. Piyada keçidlərində reydlər apardıq.

Küçə hərəkəti qaydalarına riayət etməyən 10 nəfər vətəndaş barədə protokol yazıldı, cərimələr yazıldı.

Beləliklə, izahat işləri də apardıq. Bir həftəlik aylıq səmərəli oldu.

**S.AĞAYEV,**
**Şirvan şəhər ŞPŞ DYPB-nin təbliğat və təşviqat işləri üzrə inspektoru, polis kapitanı**

**Şirvan şəhər Uşaq Gənclər Şahmat İdman məktəbində şəhər şahmatçıları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş xatirə turniri keçirilmişdir.**

# XATİRƏ TURNİRİ

Məktəbin müəllimi Zenfira İzzət qızı müxbirimizə demişdir:

-Turnirə ciddi hazırlıq işləri görülmüşdü.

Açılışda Şirvan şəhər İcra Hakimiyyətinin nümayəndəsi Samirə Bürcəli qızı çıxış edərək ulu öndərin keçdiyi şərəfli həyat yolundan danışmış, uşaqlara ulu öndərə layiq vətəndaşlar olmağı arzulamış və yarış iştirakçılarına uğurlar diləmişdir.

Şahmatçılar ümummill liderə həsr olunmuş şerlər söylədilər.

Daha sonra xatirə turinirinə start verildi.

Qələbə uğrunda 100-ə yaxın şahmatçı iştirak edirdi.

Qızlar arasında (8 yaşadək) Fatimə Nağıyeva (I yer), Nəzrin Məhərrəmli (II yer), Sevda Əliyeva (III yer), 10 yaşadək şahmatçılar arasında Aygün Bağırova (I yer), Aytac Ağayeva (II yer), Lamiyə Aslanlı (III yer),12-16 yaşadək şahmatçılar arasında Təbəssüm Qafarova (I yer), Pəri Dadaşzadə (II yer), Xavər Kazımlı (III yer), oğlanlar arasında Mikayıl Ağayev (I yer), Ziya Qəfərli ( II yer), Müzəffər Məcidli (III yer), 10 yaşlı şahmatçılar arasında Ülvi Məhərrəmli (I yer), Hafiz Nağıyev (II yer), Həsən Allahyarov (III yer), 12 yaşlılar arasında Ülvi Bayramov (I yer), Qulam Əliyev (II yer), İlkin Nağıyev (III yer), 14-16 yaşlılar arasında isə Xanış Hüseynov (I yer), İsgəndər Babayev (II yer), Kamran Səfərov (III yer) yaşdlarından güclü olduqlarını sübut etdilər.

Şahmat məktəbinin direktoru Ə.Kərimov qaliblərə fəxri fərmanlar və hədiyyələr təqdim etdi.

# AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ DÖVLƏT VERGİ ORQANLARINA İŞƏ QƏBUL OLUNMAQ İSTƏYƏN VƏTƏNDAŞLAR ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Dövlət vergi orqanlarına xidmətə qəbul Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında «Əsasnamə»nin, Dövlət vergi orqanlarında xidmət haqqında «Əsasnamə»nin və Vergilər Nazirliyinin 2008-ci il 26 sentyabr tarixli əmri ilə təsdiq edilmiş «Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.**

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə may ayının 5-dən 18-dək aparılır. İştirak etmək istəyənlər göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi İnternet səhifəsinə (www.taxes.-gov.az <http://www.taxes.gov.az> və www.e-taxes.gov.az <http://www.e-taxes.gov.az>) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar.Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə kod verilir. Namizəd sənədləri qəbul edildikdən üç iş günü ərzində verilmiş kod əsasında ərizəsinin qəbul edilib edilmədiyi barədə məlumat ala bilər.

Sənədləri qəbul edilən namizədlər 05 may-02 iyun 2014-cü il tarixlərində imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı iyun ayının 3-də TQDK-nın müəyyən etdiyi yerdə keçiriləcəkdir. «Elektron ərizə» formasını doldurmazdan qabaq namizədlər «Sənədlərinin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi» qaydaları ilə tanış olmalı, yalnız bu qaydalarla razı olduqları halda qeydiyyatdan keçməlidirlər. Elektron poçtu olan namizədlərin poçt ünvanına qeyd olunan qaydalar və digər məlumatlar göndərilir.

Namizədlər elektron ərizə formasının doldurulması və işə qəbulla bağlı sualları 403-87-52 nömrəli telefonla Vergilər Nazirliyinə, nazirliyinin inzibati binasının qəbul otağına, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinin xidmət mərkəzlərinə müraciət edə bilərlər. Diqqət! Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar yalnız vakant yerlərdən birinə işə qəbul edilməsi üçün ərizə ilə müraciət edə bilərlər. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd ərizəsində göstərdiyi vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılır!

Qeyd: Elan olunmuş vakant yerlər haqqında ətraflı məlumat www.taxes.gov-.az İnternet saytında yerləşdirilmişdir.

# «İŞIQ»- 2014 ƏZİZ OXUCULAR!

2014-cü ilin II yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.

6 aylıq abunə haqqı 12 manatdır.

«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və Şirvan şəhər mətbuat yayımı şöbəsində yazılmaq olar.

H\ h- AZ39AIIB 33060019444100281141.VÖEN -2100104521.

İndeks 66858 «İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor: M.M.XƏLİLOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200